Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Dini və milli tolerantlıq, millətlərarası münaisbətlərin inkişaf etdirilməsi**

# Azərbaycan Mədəniyyətlərarası Dialoq Forumlarını bərpa edir - Prezident qərar verdi...

**Azərbaycan uzun illərdir ki, dünya mərkəzlərindən biri kimi beynəlxalq aləmdə böyük nüfuza malikdir. Birgəyaşayışın, dinc yanaşı, sülh içində həyatı davam etdirməyin Azərbaycan modeli dünyada heyrətlə və heyranlıqla qarşılanır.**

Multikulturalizmin, tolerantlığın Azərbaycan tərzi demək olar ki, bir örnəyə çevirilib. Azərbaycan yalnız daxilində yaşayan bütün xalqlara deyil, bütün dünyaya sülh, əmin-amanlıq humanizm ruhu aşılayır, bunu öz nümunəsində göstərir.

**"Bakı Prosesi"ndən doğan təşəbbüslər...**

Dövlətimizin təşəbbüsü və dəstəyi ilə 2008-ci ildə Bakı Prosesinin meydana gəlməsi tarixi bir hadisədir. Qeyd edək ki, "Bakı Prosesi Azərbaycan Respublikasının təşəbbüsü ilə 2008-ci ildə mədəniyyətlər və sivilizasiyalar arasında səmərəli və effektiv dialoqun qurulması məqsədilə irəli sürülüb. Azərbaycanın belə bir qlobal hərəkatın təşəbbüskarı kimi çıxış etməsinin əsasında ərazisində tarixən fərqli dini mənsubiyyəti olan icmaların, milli-etnik qrupların və zəngin mədəni müxtəlifliyin olması dayanır.

2010-cu ildən Bakı Prosesi qlobal hərəkata çevrilməyə başladı. 2010-cu ilin 23 sentyabr tarixində BMT-nin Baş Assambleyasının 65-ci sessiyasında Prezident İlham Əliyev tərəfindən Bakıda Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçiriləcəyi elan edildi.

Beləliklə, 2011-ci ilin 7-9 aprel tarixində Bakıda UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Avropa Şurası, Avropa Şurasının Şimal-Cənub Mərkəzi və İSESCO-nun tərəfdaşlığı ilə I Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu təşkil olundu. Həmin tarixdən başlayaraq Mədəniyyətlərarası Dialoq Formunun keçirilməsi ənənə halını aldı. Pandemiayaya qədər Bakıda I, II, III, IV, V Mədəniyyətlərarası Dialoq Formları keçirilib.

**Mədəniyyətlərarası Dialoq Forumu bərpa edilir...**

"Azərbaycanda ənənəvi keçirilən Mədəniyyətlərarası Dialoq Forumu gələn ildən bərpa olunacaq". Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev martın 8-də BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Anxel Moratinosu qəbul edərkən məlumat verib

Prezident İlham Əliyev Azərbaycanda ənənəvi keçirilən və COVID-19 pandemiyasına görə müvəqqəti təxirə salınan Mədəniyyətlərarası Dialoq Forumunun da gələn ildən bərpa olunacağını, bu xüsusda ölkəmizlə BMT-nin Sivilizasiyalar Alyansının əməkdaşlığının davam edəcəyinə əminliyini bildirib.

Ekspertlər hesab edirlər ki, bütün dünya Bakıda keçirilən bu forumlarda əbədi sülhün, birgəyaşayışın, mədəniyyətlər, xalqlar, dinlərarasında anlaşmaların forma və düsturunu məhz Azərbaycandan öyrənir. Bu tədbirlərdən dünyaya verilən mesajlar bütün mənalarda böyük əhəmiyyətə malikdir.

Mədəniyyətlərarası Dialoq Forumunun yenidən bərpa edilməsinin müsbət hal olduğunu deyən ekspertlər hesab edir ki, Azərbaycan təşəbbüsü, dəstəkçisi olduğu heç bir layihəni yarımçıq qoymayıb. Bu da ölkəmizin nüfuzlu və etibarlı tərəfdaş olmağından, öz sözünə, məqsədinə sadiq olmasından irəli gəlir.



**"Azərbaycan dövlətinin yenidən sözügedən forumu aktivləşdirməsi çox əhəmiyyətlidir"**

"Müasir İnkişaf" Birliyinin sədri, siyasi şərhçi Mübariz Göyüşlü bizimlə söhbətində bildirdi ki, Mədəniyyətlərarası Dialoq Forumu hər iki ildə bir dəfə Azərbaycanda keçirilirdi, sadəcə pandemiya səbəbindən növbəti forumun keçirilməsi təxirə salındı. O, vurğuladı ki, Azərbaycan Prezidentinin Mədəniyyətlərarası Dialoq Forumunun bərpa ediləcəyini bildirməsi çox vacib bir xəbərdir, çünki bu gün dünyada ən çox ehtyac olan məsələ sülh, əmin-amanlıq, humanizm və başqa bu qəbildən olan məsələlərdir. "Ümumiyyətlə, Azərbaycan dövləti kifayət qədər aktiv xarici siyasət yürüdür. Nəinki regional artıq qlobal məsələlərlə də, problemlərlə də bağlı proseslərə öz töhfəsini verir. Xüsusən də dövlətimizin qələbəsi ilə başa çatan İkinci Qarabağ Müharibəsindən sonra xarici siyasətimiz bizim qlobal arenada olan aktiv rolumuzun daha da artmasına istiqamətlənib. Azərbaycan istər pandemiya, istərsə də Qoşulmama Hərəkatının sədri kimi digər qlobal problemlərlə bağlı öz təklif və təşəbbüslərini göstərib. BMT Təhlükəsizlik Şurasının tərkibinin dəyişdirilməsindən tutmuş BMT səviyyəsində ədalətsizliyin aradan qaldırılmasına qədər Azərbaycan bir sıra məsələlərdə təşəbbüsləri var. Bu təşəbbüslər ən müxtəlif səviyyədə beynəlxalq aləm tərəfindən dəstəklənir. O cümlədən də Azərbaycanın Mədəniyyətlərarası Dialoq Forumları ilə bağlı tədbirləri də hər zaman müsbət qarşılanıb. Azərbaycan dövlətinin yenidən sözügedən formu aktivləşdirməsi çox əhəmiyyətlidir. Uzun illər bundan əvvəl öz işinə başlayan bu forumun gələn il yenidən keçirilməsi bütün dünyanın tələbi və istəyidir. Bu baxımdan, bu forumun bərpası təşəbbüsünün irəli sürülməsi tam yerinə düşür. Çünki bu gün dünyanı müharibələr, terror başına götürüb.

Müasir dünyada problemlər, qarşıdurmalar, dözümsüzlük hökm sürür və bu zaman da ən çox ehtiyac olan mədəniyyətlər, dinlərarası dialoqdur ki, Azərbaycan illərdir onu təlqin edir. Hazırda bu cür toplantılara ehtiyac var. Bu təşəbbüslər də Azərbaycanın xoş niyyətlərindən qaynaqlanır. Müxtəlif mədəniyyətlərə sahib olan dünya əhalisi, eləcə də onun ağıllı kəsimini təmsil edən nümayəndələr yaxşı görürlər ki, Azərbaycan və Azərbaycan kimi ölkələrin timsalında bu problemi həll etmək istəyən dövlətlər dialoq yolunu tuturlar. Dünya dialoq yoluna gələrsə daha çox anlaşma ilə bu problemləri həll etmək olar. Amma siz fikir verirsiz ki, Fransa, ABŞ, Rusiya kimi ölkələr bu münaqişələrin həll olunmasını istəmir, gərginliyin qalmasını istəyir. Onlar məsələləri daha çox konflikt istiqamətə yönləndirmək istəyirlər. Bu gün dünyanın yeni nəfəsə, yeni təşəbbüslərə ehtiyac var və Azərbaycan da həmişə yeni təşəbbüslərlə, dünya üçün aktual olan məsələlərə diqqət ayırır" - deyə M.Göyüşlü qeyd etdi.

***İradə SARIYEVA***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**